Səh. 2 **BİZİM DAŞIMIZ AĞIRDIR**

Səh. 5 **60 KREDİTLİK MÜƏLLİM HAZIRLIĞI PROQRAMINA QƏBUL NƏ ZAMAN BAŞLAYACAQ?**

Səh. 3 **NƏFS VƏ TÖRƏTDİYİ FƏSADLAR**

Səh. 6 **İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA**

Səh. 4 **UŞAQLAR ÜÇÜN 200 LARİNİ ALMAQDAN ÖTRÜ HARADA VƏ NECƏ QEYDİYYATDAN KEÇMƏK LAZIMDIR?**

Səh. 7 **QARDABANİDƏ YENİ ƏDLİYYƏ EVİ TİKİLİR**

Səh. 4 **MƏKTƏBLƏRDƏ DƏRSLƏR ŞƏNBƏ GÜNLƏRİ DƏ KEÇİRİLƏ BİLƏR**

Səh. 7 **GÜRCÜSTANIN XARİCƏ OLAN BORCLARI NƏ ÜÇÜN İLDƏN-İLƏ ARTIR?**



İCTİMAİ QƏZET · yeni_yol@mail.ru · იენი იოლი საზოგადოებრივი გაზეთი · *HAQQIN SÖZÜ – SÖZÜN HAQQI*

15 AVQUST
2020-Cİ İL
№010 (114)

# Yeni YOL

*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*


## RUSİYANIN GÜRCÜSTANA TƏCAVÜZÜNDƏN 12 İL ÖTÜR



Bu il Rusiya və Gürcüstan arasındakı müharibənin 12-ci ildönümü tamam olur. Bununla əlaqədar müharibədə həlak olanların xatirəsinə ehtiram əlaməti olaraq avqustun 8-i Gürcüstanın prezident sarayı, hökumət administrasiyası, parlament binası və digər dövlət idarələrində bayraqlar endirilib.

Bütün ölkə ərazisində və Gürcüstanın xarici ölkələrdəki səfirliklərində müharibənin ildönümünə həsr olunan anım mərasimləri keçirilib.

Xatırladaq ki, 2008-ci ilin avqustun 8-də başlayan Rusiya-Gürcüstan müharibəsi 5 gün davam edib. Hərbi əməliyyatlar zamanı 408 Gürcüstan vətəndaşı həlak olub. Onların 170-i hərbçi, 14-ü Daxili İşlər Nazirliyinin əməkdaşı, 224-ü dinc sakin olub, 2 232 nəfər yaralanıb, 26 min nəfər isə qaçqın vəziyyətinə düşüb.

Beş günlük müharibə Rusiyanın Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrinin işğalı, daha sonra hər iki bölgənin müstəqilliyini tanıması ilə başa çatıb. Buna cavab olaraq rəsmi Tbilisi Moskva ilə diplomatik əlaqələri dayandırıb və hər iki bölgəni rəsmi olaraq işğal olunmuş ərazilər elan edib.

## GÜRCÜSTANDA KORONAVİRUSA YOLUXANLARIN SAYI 1250 NƏFƏRƏ AÇTIB




Gürcüstanda koronavirus təsdiqlənmiş şəxslərin sayı 1321 nəfərə çatıb. Bu barədə hökumətin koronavirusla bağlı yaratdığı xüsusi rəsmi saytında (www.stopcov.ge) bildirilir.

Avqustun 15-nə olan göstəricilərə əsasən, ölkədə koronavirusdan sağalanların sayı 1088 nəfər, ölənlərin sayı isə 17 nəfərdir.

Hazırda Gürcüstan üzrə karantində 7597 nəfər, stasionar nəzarətdə isə 249 nəfər saxlanılır.

Xaricdən müalicə üçün ölkəyə gətirilən Gürcüstan vətəndaşlarının sayı isə 41 nəfərdir.

## DAVİD ZALKALİANİ: AZƏRBAYCAN-GÜRCÜSTAN-TÜRKİYƏ ƏMƏKDAŞLIĞI UNİKAL FORMATDIR



Xarici işlər naziri David Zalkaliani "Gürcüstan və qonşuluq" adlı illik konfransda çıxışı zamanı bildirib ki, "regional əməkdaşlıq Gürcüstanın xarici siyasətinin əsas prioritetlərindən biri olaraq qalır".

Onun sözlərinə görə, regional əməkdaşlıq uzunmüddətli və dayanıqlı inkişaf üçün əsas hərəkətverici qüvvədir və bunun ən yaxşı nümunəsi Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatıdır.

"Biz Cənub Qaz Dəhlizi layihəsinin tam reallaşdırılması ideyasına sadiqiq. Azərbaycan, Gürcüstan və Türkiyə arasında unikal regional sinergiya var. Bir tərəfdən Azərbaycanın enerji ehtiyatlarına artan tələbatın ödənilməsi mümkün olur, digər tərəfdən isə Gürcüstan və Türkiyənin tranzit potensialı Avropa bazarlarına əlavə resursların çatdırılması üçün unikal imkan yaradır", - deyə nazir bildirib.

D.Zalkaliani qeyd edib ki, regional əməkdaşlığın daha bir nümunəsi ötən il Gürcüstanın baş naziri, Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə baş tutan TANAP-ın ikinci hissəsinin açılmasıdır: "Bu layihə Avropanın təhlükəsizliyində yeni era deməkdir və Cənub Qaz Dəhlizinin tam gücü ilə işləməsini təmin edir".

XİN başçısı ümidvar olduğunu bildirib ki, Mərkəzi Asiya ölkələrini Gürcüstanın nəqliyyat və kommunikasiya layihələri ilə əlaqələndirəcək Bakı-Tbilisi-Qars dəmir yolunun inşası yaxın zamanlarda başa çatdırılacaq.

## YENİ DƏRS İLİ SENTYABRIN 15-DƏ BAŞLAYACAQ

Gürcüstanda orta və ali məktəblərdə yeni dərs ili sentyabrın 15-də başlayacaq. Bu barədə Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Çxenkeli brifinqdə çıxışı zamanı bildirib.

Nazir qeyd edib ki, müvafiq qərar cari epidemioloji vəziyyət nəzərə alınmaqla qəbul edilib.

"Hazırkı göstəricilərə əsasən, dərs ili adi qaydada sentyabrın 15-də başlayacaq. Lakin biz bütün ssenarilərə hazırıq", - deyə nazir bildirib.

Uşaq Bağçaları Agentliyinin rəhbəri Kaxaber Qvantseladze isə sentyabrın 14-dən uşaq bağçalarının fəaliyyətə başlayacağını bildirib.



# BİZİM DAŞIMIZ AĞIRDIR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bizim daşımız ağırdır. Daşımız ağır olsa da vətənDAŞ sözündəki DAŞımızın pərqu qədər çəkisi yoxdur niyəsə... Təkcə vətəndaş sözündəki daş deyil, soydaş, dindaş, qardaş, yurddaş sözlərindəki daş da öz topuğumuza dəyir, öz başımıza yağır əsrlərdir. Axı, daha daş dövrü, daş əsri deyil. İndi internet dövrüdür, hamı əlinin altında bir klaviatura oturub monitorun arxasında yetənə yetir, yetməyənə bir daş atır.

Daşımız o qədər ağırdır ki, hər daş dəymiş ayıya dönən bostanımıza bir daş atır. Axı, biz kimin toyuğuna daş atmışıq, kimin yurdunda daşı daş üstə qoymamışıq ki, daşımız belə ağırdır?..

Biz ki, çörəyi daşdan çıxanlarıq, halal əməyimizin daşdan yumşağına razı olub gündüzləri çalışıb, gecələri daş kimi düşüb qara daşı yastıq edirik. Bizim daş atıb başımızı tutmağa, əlimizdə daş saxlamağa, daşı dalımızda gizlətməyə, daşın böyüyündən yapışmağa, kimlərinsə başına daş salmağa, ayağına daş asmağa, qabağına daş dığırlamağa qızıldan qiymətli vaxtımız yoxdur. Olsa-olsa kimlərinsə ayağının altına daş qoymağa vaxtımız olar, duz-çörək kəsdiyimiz, dost dediyimiz kəslərin daş qoyduğu yerə baş qoyarıq.

Bəs siz, siz nə edirsiz? Dost deyib, qardaş deyib ağzımıza daş basırsız, başı əlhəd daşına dəyməyəninizdən tutmuş ürəyinə daş bağlayanınıza kimi içinizin kinini tökməyə fürsət axtarırsınız, daş atan düşmən axtarırsınız. Daşın haradan atıldığını bilmək istəyirsinizsə gedin İlia Cavcavadzenin daşlarının harayını dinləyin. Bizim daşımız ağırdır, əl ilə atılan deyil onsuz da.

Bizim daşımız o qədər ağırdır ki, onun-bunun bəd əməlini də adımıza çıxırsınız. Bizim milçəyimizdən fil düzəldib, onun-bunun filini bir daş altda, bir daş üstdə ört-bastır etməyə canfəşanlıq edirsiniz. Hər aşı daş çıxan, hər baltası daşa dəyən beynindən başqa digər orqanları ilə düşünüb fikirləşdiyi hər hətərən-pətərən sözü ünvanımıza yazır, təhqir edir. Alimindən cahilinə, möminindən kafirinə kinlə, nifrətlə köklənib bizə qarşı. Nədən əcaba? Pulumuzunmu nömrəsi yoxdur, çörəyimizinmi dadı, odumuzunmu istisi?.. Daş qəlbli insanları neylərdin, ilahi?! (M.Ə.Sabir)

Biz dil bilməyəndə savadsız oluruq, başqaları dil bilməyəndə təhsil sistemi günahkar olur. Biz haqqımızı istəyəndə vətən xaini oluruq, başqaları haqqı olmayanı qapanda mübariz olur. Biz dərdlərimizi danışanda "müxalifət partiyası" oluruq, başqaları müxalifət partiyası yaradanda hakimiyyət günahkar olur. Axalkalakidə evlər yandırılır, video xəbərin altında bizi söyür, təhqir edir, Bakıya "göndərirlər"; Həmin videoda yerli sakinlər öz dillərində danışırlar, "bunlar Gürcüstanda niyə türk dilində danışırlar" deyib yenə bizi söyür, təhqir edir, Türkiyəyə "göndərirlər"... Üzü daşdan bərk olmalısan ki, bu cür iftiralar yaxasan. Və təəssüf ki, ətəyində daş monitor arxasında oturub başqalarını təhqir etmək üçün vətənin "keşiyində" gözləyən bələləri azalmaq əvəzinə günü-gündən törəyirlər. Hələ guya bizim "qeydimizə qalan", hüququmuzu "qoruyan" qruplar da var ki, oğru yadına daş salmaqla, qurbağa gölünə daş atmaqla məşğuldurlar, bu da kəsəyin oturub daş üçün ağlamasıdır.

Daşlar isə təkcə susmurlar, daşlar həm də danışırlar, min illərin yaddaşını özlərində qoruyub saxlayırlar və gələcək nəsillərə ötürürlər. Bəlkə YADdaşımızı DOĞMAdaşımıza çevirməyin vaxtıdır artıq?.. Onsuz da bizim daşımız ağırdır.

## SƏHİYYƏ NAZİRİ: PAYIZDA KORONAVİRUSA YOLUXANLARIN SAYINDA ARTIM OLACAĞI GÖZLƏNİLİR




Gürcüstanın səhiyyə naziri Ekaterine Tikaradze jurnalistlərə açıqlamasında bildirib ki, payızda Gürcüstanda koronavirusa yoluxanların gündəlik sayında artımın olacağı gözlənilir və insanlar hələ uzun müddət koronavirusla birgə yaşamalı olacaqlar.

Nazir artımın yalnız Gürcüstanda deyil, digər ölkələrdə də gözlənildiyini deyib.

"Biz bu məlumatı ictimaiyyətdən gizlətməmişik. İkinci dalğa gözlənildiyindən biz vətəndaşlarımızı gündəlik olaraq artıq məlum tövsiyyələrə riayət etməyə çağırırıq", - deyə E.Tikaradze qeyd edib.

## BARIŞIQ VƏ VƏTƏNDAŞ BƏRABƏRLİYİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ POSTUNA YENİ RƏHBƏR TƏYİN OLUNUB



Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri postuna yeni rəhbər təyin olunub.

Yeni nazir Tea Axvledianinin təyinatı barədə baş nazir Giorgi Qaxaria hökumətin iclasında bildirib.

T.Axvlediani bundan öncə səhiyyə nazirinin müavini və Gürcüstanın Estoniyadakı səfiri vəzifələrində çalışıb. O, yeni vəzifəsində Ketevan Tsixelaşvilini əvəz edib. K.Tsixelaşvili Gürcüstanın Avstriyaya səfiri təyin olunub.

Qeyd edək ki, Gürcüstanda yaşayan milli azlıqlarla bağlı məsələlər barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirinin əsas fəaliyyət istiqamətlərindən biridir.

## NOYABR AYINDAN VƏTƏNDAŞLARIN QAZ VƏ İŞIQ PULUNU DÖVLƏT ÖDƏYƏCƏK



Gürcüstan hökumətinin qərarı ilə vətəndaşların kommunal xərclərinin dövlət hesabına ödənilməsi qış aylarında da davam edəcək. Bu barədə baş nazir Giorgi Qaxaria bildirib.

Onun sözlərinə görə, ödənişlər noyabr, dekabr, yanvar və fevral aylarını əhatə edəcək.

"Ay ərzində 200 kilovatt elektrik enerjisi və 200 kub metr təbii qaz istehlak edən vətəndaşların 4 aylıq xərcləri dövlət tərəfindən tam maliyyələşdiriləcək", - deyə baş nazir bildirib.

## XARİCİ ÖLKƏ VƏTƏNDAŞLARININ GÜRCÜSTANDA QALMA MÜDDƏTİ UZADILDI




Hökumətin qərarına əsasən, koronavirus pandemiyasına görə Gürcüstanı tərk edə bilməyən əcnəbi vətəndaşların ölkədə qalma müddəti dekabrın 31-dək uzadıldı.

Belə ki, martın 14-dən Gürcüstanda qanuni qalmaq hüququ olan xarici vətəndaşlar dekabrın 31-dək ölkədə problemsiz qala biləcəklər.

Qeyd edək ki, Gürcüstanda qanuni qalmaq müddəti başa çatmaq üzrə olan əcnəbilər ölkəni tərk etməlidirlər. Əks halda, onları cərimə və ya Gürcüstana daxil olmağa qadağa qoyulmaqla ölkədən çıxarılma gözləyir.

## AVROPALI GÜRCÜSTAN PARTİYASI MARNEULİ-QARDABANİ DAİRƏSİ ÜZRƏ NAMİZƏDİNİ TƏQDİM EDİB



Avropalı Gürcüstan Partiyası majoritar deputatlığa namizədlərinin siyahısını açıqlayıb.

Marneuli-Qardabani dairəsi üzrə namizəd kimi partiyanın Marneuli nümayəndəliyinin rəhbəri Əhməd İmamquliyev təqdim olunub.

Partiya avqustun 3-dən seçki kampaniyasına start verdiyini də elan edib.

Qeyd edək ki, parlamentə seçkilər oktyabrın 31-nə təyin olunub. Seçicilər 30 deputatı majoritar, 120-ni isə proporsional sistem üzrə seçəcəklər.

Xatırladaq ki, "Gürcü arzusu" Partiyasının Marneuli-Qardabani dairəsi üzrə majoritar deputatlığa namizədi Marneuli meri Zaur Darğallıdır.

## VAHİD MİLLİ HƏRƏKAT PARTİYASI MARNEULİ-QARDABANİ DAİRƏSİ ÜZRƏ NAMİZƏDİNİ AÇIQLAYIB



Vahid Milli Hərəkat Partiyası (VMHP) Azər Süleymanovu deputatlığa namizəd irəli sürəcək.

O, Marneuli-Qardabani dairəsi üzrə majoritar deputatlıq uğrunda mübarizə aparacaq.

A.Süleymanov "Marneuli" radiosuna partiyada namizədliyinin yekdilliklə dəstəkləndiyini bildirib.

Qeyd edək ki, A.Süleymanov 1999-cu ildən Gürcüstan parlamentində təmsil olunur.

## "LELO" PARTİYASI MARNEULİ-QARDABANİ DAİRƏSİ ÜZRƏ DEPUTATLIĞA MURAD MURADOVUN NAMİZƏDLİYİNİ İRƏLİ SÜRÜB



"Gürcüstan üçün Lelo" Partiyası Mtsxetada təşkil olunmuş təqdimat mərasimində majoritar deputatlığa namizədlərini təqdim edib.

Partiya Marneuli-Qardabani dairəsi üzrə deputatlığa Murad Muradovun namizədliyini irəli sürüb.

Qeyd edək ki, Murad Muradov "Gürcüstan üçün Lelo" Partiyasının üzvüdür və partiyanın Marneuli regional təşkilatının rəhbəridir. Təşkilat iyul ayının 1-dən fəaliyyət göstərir.

## NƏFS VƏ TÖRƏTDİYİ FƏSADLAR



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Allah-təala insanda üç şey yaratdı: ağıl, qəlb və nəfs. Bunların heç biri gözlə görünməz, varlıqlarını əsərləri ilə, etdikləri işlərlə və dinimizin bildirməsi ilə anlayırıq. Ağıl və nəfs beynimizdə, qəlb ürəyimizdədir.

Nəfsini tərbiyə edə bilməyən, ona uyan acizdir. Hədisi-şəriflərdə "Əsl qəhrəman, nəfsini məğlub edəndir" buyrulmuşdur.

Nəfsin fəlakətləri sayılmayacaq qədər çox və iç-içədir. İnsan düşünsə dünyalıq bir fəlakət ilə qarşılaşdığında bunun öhdəsindən gəlmək üçün çox yollar tapar. Özünə dost, köməkçi və yoldaş axtarar. Beləcə dünyəvi fəlakətdən xilas olar. Ancaq nəfsin fəlakətləri insanlığı elə korlamaqdadır ki, orada gözəl və saleh əməldən başqa heç bir köməkçi tapılmaz. Əvvəla ağlımıza və könlümüzə nəfsin gətirib çıxaracağı təxribatları öyrətməliyik ki, şiddətli bir şəkildə ondan qaçınsın və təhlükəsini idrak edə bilsin. Bunun üçün nəfsin gətirib çıxaracağı təhlükələri aşağıda izah etməyə çalışacağıq:

1. Nəfs şiddətli bir düşməndir.

Nəfs daim qadağaları, qanunları çeynəmək və əzib keçmək həvəsindədir. Əbədi həyat beləcə zərər çəkib xüsrana uğramaqdadır. Öz mənliyimiz olmasına baxmayaraq ən böyük düşməndir.

Mömin üçün həyat mübarizəsi Rəbbini razı edib, Onun istədiyi istiqamətdə yaşamaq, diqqətli və oyanıq olaraq sıratı müstəqimdə (doğru yolda) getməsidir. Bir anlıq qəflət və dalğınlıq onun həlak olmasına səbəb ola bilər. Anlıq qəflət əbədi xüsranla nəticələnə bilər. Sufyani Sevri deyir ki: "Nəfsimdən daha bərk(qatı) bir şeylə döyüşmədim. Bəzən mənə tərəfdar görünür, bəzən də əleyhimə dönür." (Əhya: 6)

2. İbadət və ilahi hökmlərdə (əmrlərdə) zəiflik göstərmək.

Nəfs daim rahatlığı istəyir. İstənilən əmrləri etməmək üçün bəhanə axtarar. Kiçik bir baş ağrısında, sadə bir xəstəlikdə və ya kiçik bir yaralanmada özünü elə bir hala salar ki, işi edə bilməməsi yönündə bəhanələr göstərər. O zamana qədər nizamlı-intizamlı olaraq etmiş olduğu namazlarını, sünnələrini, zikr və təsbihatını ən aşağı səviyyəyə endirməyə başlayar. Bu da zamanla vərdiş halına gəlir. Halbuki ağır bir hadisə olmadıqca ibadətlərə diqqət göstərmək insanı gücləndirər, ruhunu sağlamlaşdırar. Əks halda bu ibadətlərdə etdiyi zəiflik nəticəsində ilahi rəhmətdən uzaqlaşar. Allah qorusun, cəhənnəmin qızğın atəşi ilə cəzalandırılar. Çünki ancaq münafiqlər və ürəyində nəfsi xəstəlikləri olanlar bu zəifliyi göstərər.

3. Nəfsin istək və arzularına görə hərəkət etmək.

Nəfsin istək və arzularına görə hərəkət edildiyində, təbii olaraq, Allahın razılığına görə hərəkət etmək geri planda qalır. Artıq adam etdiyi hər şeydə nəfsinin mənfəətini düşünür. Əgər bu Allahın əmri olsa belə nəfsinə tərs düşdüyündən onu tərk edər, dinləməz. Bunun nəticəsində ixlas və iman böyük nisbətdə yara alar, zədələnər.

4. Nəfs əxlaqi rüsvayçılıqların qaynağıdır.

Nəfs yuxarıda da açıqladığımız fəlakətlərin xaricində, qəlbi xəstəliklərin adama yetirdiyi zərərlərin hamısını da ayrıca əhatə etməktədir. Yəni qısqanclıq, qeybət, qürur və s. bütün xəstəliklərin qaynağı olmaqla birlikdə fərdi və ictimai bütün zərərlərə də səbəb olur.

5. Belə bir adam cəmiyyətdə də sevilməz.

Belə bir adam cəmiyyətdə sevilməz, çünki hər hadisədə eqoist davranan kimsənin cəmiyyətə bir faydası olmaz. Faydalı ola bilməsi üçün bəzi fədakarlıqlar etməsi lazımdır. Bu da tamamilə nəfsinin əsiri olan bir adam üçün çox çətindir.

Madəm nəfs belə pisliyə meyl etdirən, axirəti zərərə uğradan, dünya və axirət səadətini yox edən bir düşməndirsə onu tərbiyə və islaha çalışmalı, onu başıboş buraxmamalıyıq. Allah nəfsin təmizlənməsini, əxlaqın gözəlləşdirilməsini qulun cəhd və iradəsinə həvalə etmişdir. Nəfsin meyvəsi pis əxlaqdır. Pis əxlaq əbədi həyatı öldürən xəstəlikdir. Cəsədin xəstəlikləri ilə nəfsin xəstəlikləri arasında böyük fərq vardır. Bədəndəki xəstəliklərin, fani həyatı əldən çıxarmaq xaricində bir zərəri olmadığı halda həkimlər müalicə üçün qızğın işlər aparmaqdadırlar və hələ də işləri davam edir. O halda nəfsi xəstəlikləri idarə altına almaq daha sərfəli deyilmi? Çünki bunda axirətin məhv olması əsas mövzudur. Əgər laqeydlik edilsə xəstəliklər artar. Xəstəliklər bir-birini izləyər və biri digərinə köməkçi olar. Müalicələri çətinləşər. Bu təqdirdə adam onların diaqnozunda, səbəblərinin bilinməsində çətin bir hala düçar olar. Sonra onları islah və müalicə etməyə məcbur olar. Qurani Kərimdə: "Nəfsini günahdan təmizləyən nicat tapmışdır" deyilərək bu vəziyyət təriflənmiş; bu müalicəyə laqeyd yanaşan isə bu ayəyi kərimə ilə pislənmişdir: "Nəfsini günaha batıran isə ziyana düşmüşdür" (Şəms: 9/10).

Bilinməlidir ki, tənbəlləşən bir nəfslə mübarizə etmək, nəfsi riyazətə çəkmək, nəfsin təzkiyəsi və əxlaqın təmizlənməsiylə məşğul olmaq adama ağır gəlir. Lakin heç bir şəkildə, Allah pis əxlaqı bir qulun qədəri etməmişdir. İnsan bunu öz zəifliyi, ailənin təsiri və s. ilə qazanmaqdadır.

Nəfslə mübarizə dediyimizdə nəfsin tamamilə öldürüb fitri olaraq var olan duyğuların yox edilməsini nəzərdə tutmuruq. Onsuz da buna heç kəsin gücü də çatmaz. Biz ancaq onu tərbiyə etməyi, islah etməyi, itaət altına almağı nəzərdə tuturuq. Biz bununla əmr olunmuşuq. Belə etmək bizim qurtuluşumuza və Allaha çatmağımıza səbəb olar. Bəli, təbiətlər müxtəlifdir – bəziləri tez tərbiyə olunur, bəziləri də gec qəbul edər. Bu da insan oğlunda mövcud olan şəhvət, qürur və hirs qüvvələrinin yaranmasındandır.

## MƏKTƏB ŞAGİRDLƏRİ 200 LARİ ALACAQLAR, SOSİAL MÜDAFİƏSİZ TƏLƏBƏLƏRİN BİR SEMESTR TƏHSİL HAQQINI DÖVLƏT ÖDƏYƏCƏK



17 yaşa qədər şəxslər birdəfəlik 200 larilik yardım alacaq, sosial müdafiəsiz tələbələrin isə bir semestr təhsil haqqını dövlət ödəyəcək. Bu haqda baş nazir Giorgi Qaxaria hökumətin iclasında bildirib.

"İqtisadi böhranda vətəndaşlarımıza və ilk növbədə 17 yaşa qədər uşaqlara dövlət tərəfindən 200 larilik yardım olunacaq. Bu, tədris ili başlayana qədər ən vacib sosial yardımlardan biri olacaq.

150 bala qədər olan sosial müdafiəsiz tələbələrin dövlət tərəfindən bir semestr təhsil haqqı ödənəcək. Sosial baxımdan 150 balı olan və pula görə təhsilini dayandırmış bütün tələbələrin də bir illik – 2020-2021-ci tədris ilinin təhsil haqqını dövlət qarşılayacaq. Həmin məbləğ 1225 laridir. Ümumilikdə, güzəştlərdən 33 mindən çox tələbə yararlanacaq", - deyə baş nazir bildirib.

## UŞAQLAR ÜÇÜN 200 LARİNİ ALMAQDAN ÖTRÜ HARADA VƏ NECƏ QEYDİYYATDAN KEÇMƏK LAZIMDIR?



Avqustun 15-dən etibarən 17 yaşa qədər (17 yaş da daxil olmaqla) olan uşaqlar üçün 200 larinin alınması üzrə qeydiyyat prosesinə start verilib.

Qeydiyyat ölkənin Səhiyyə Nazirliyinin rəsmi saytının "daxmareba.moh.gov.ge" bölməsində aparılacaq.

Elektron portal 24 saat ərzində işləyəcək. Qeydiyyat prosesi dekabrın 1-dək davam edəcək.

Qeydiyyatdan keçmək üçün aşağıdakı məlumatlar daxil edilməlidir:

• Uşağın adı, soyadı, doğum tarixi, şəxsi nömrəsi.

• Valideyinin/uşağın qanuni nümayəndəsinin adı, soyadı və şəxsi nömrəsi.

• Valideynin adına açılan bank hesabının detalları (bank hesab nömrəsi).

• Ədliyyə Nazirliyi uşaq və valideyn arasında əlaqəni təsdiq edəndən sonra valideyn uşağın doğum haqqında şəhadətnaməsini yükləməli olacaq.

• Uşağın qanuni nümayəndəsi də uşaqla əlaqəsini təsdiq edən sənəd təqdim etməlidir.

Maddi yardım 0-17 yaş arasında olan uşaqlara veriləcək. Vəsait sentyabr ayından bank hesablarına köçürüləcək.

Saytda qeydiyyatdan keçə bilməyən vətəndaşlar Sosial Xidmətlər Agentliyi, yerli icra hakimiyyəti orqanları, ədliyyə evləri, icma mərkəzləri və "Liberty Bank"ın filiallarına müraciət edə bilərlər.

Əlavə məlumat üçün Səhiyyə Nazirliyinin 1505 saylı "qaynar xətt"inə zəng vurmaq olar.

*Mənbə: newsbureau.ge*

## HƏRBÇİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİNİN TƏHSİL HAQQININ YARISINI MÜDAFİƏ NAZİRLİYİ ÖDƏYƏCƏK

Hərbçilərə istiqamətlənmiş yeni sosial siyasət çərçivəsində Müdafiə Nazirliyi növbəti yeni layihəyə başlayır. Layihə hərbçilər və onların ailə üzvlərinə təhsilin əlçatan olmasını nəzərdə tutur.



Müdafiə naziri İrakli Qaribaşvilinin qərarına əsasən, nazirlik ali təhsil müəssisələrinə qəbul olan hərbçilər və onların ailə üzvlərinin təhsil haqqının 50%-ni ödəyəcək. Bu, təhsil haqqının – 2250 larinin yarısının ödənməsi deməkdir. Bundan əlavə, yüksək akademik iştirak üçün onlara davamlı olaraq 750 lari "nazir təqaüdü" təyin olunacaq.

Yeni layihəni Gürcüstanın müdafiə naziri ictimaiyyətə təqdim edib. İ.Qaribaşvili layihənin əhəmiyyəti və əsgərlərə və onların ailə üzvlərinin qayğısına istiqamətlənmiş Müdafiə Nazirliyinin sosial siyasətindən danışıb. Tədbirdə Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Çxenkeli, layihəyə qoşulmuş avtorizasiyadan keçmiş ali təhsil müəssisələrinin rəhbər şəxsləri iştirak ediblər. Onlar layihədə iştirak etməyə hazır olduqlarını qarşılıqlı memoranduma imza atmaqla təsdiqləyiblər.

## MƏKTƏBLƏRDƏ DƏRSLƏR ŞƏNBƏ GÜNLƏRİ DƏ KEÇİRİLƏ BİLƏR

**Məktəblərdə dərslər şənbə günləri də keçirilə bilər. Amma təhsil nazirinin müavininin sözlərinə görə, ümumtəhsil müəssisələrində təhsilin yenilənməsindən sonra şənbə günündən istifadə etmək məcburi olmayacaq.**



**Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Ekaterine Dqebuadze məktəblərin hansı halda şənbə günündən dərs günü kimi istifadə edəcəyini izah edib:** *"Şənbə günündən istifadə etmək tövsiyələrdən biridir, məcburi deyil. Əgər məktəb hesab edərsə ki, günlərin sayından irəli gələrək təşkil etdikləri saatların sayı azdır, yaxud əlavə gün və ya saat lazımdır, bu halda şənbə günündən də istifadə edə bilərlər.*

*Elə məktəblər var ki, 50 şagird, eləsi də var ki, 2000-dən çox şagird təhsil alır. 1800-dən artıq birnövbəli və 200-dən artıq ikinövbəli məktəblərimiz də var. Əlbəttə, tövsiyələrdə onların ehtiyacları nəzərdə tutulub. Məktəblərdə I-IV sinif şagirdləri üçün dərslərin sinif otağında keçirilməsi və lazım olan halda növbələrin müxtəlif modelə əsasən planlaşdırılması məcburi şəkildə müəyyən edilib. Həmçinin infrastrukturdan irəli gələrək də şənbə günündən istifadə oluna bilər.*

*Səhiyyə Nazirliyinə və tövsiyələrin hazırlanmasına qoşulan bütün şəxslərə minnətdaram. Biz ictimai və özəl məktəb direktorları və beynəlxalq təşkilatlarla, eləcə də UNICEF-lə fəal şəkildə əməkdaşlıq edirik".*

Xatırladaq ki, Təhsil Nazirliyinin qərarına görə, I-IV sinif şagirdləri üçün dərslərin sinif otaqlarında keçirilməsi məcburidir.

Məktəb rəhbərliyi tərəfindən lazım olan halda qarışıq modelin tətbiqi zamanı V-VI siniflərdə distant təhsil həftədə maksimum 1 gün, VII – XI siniflərdə maksimum 2 gün, XII sinifdə isə maksimum 3 gün keçiriləcək. Qarışıq təhsil modeli Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi və təhsil resurs mərkəzləri ilə razılaşdırılmalıdır.

# 60 KREDİTLİK MÜƏLLİM HAZIRLIĞI PROQRAMINA QƏBUL NƏ ZAMAN BAŞLAYACAQ?

Müəllim hazırlığı proqramına qəbul yeni tədris ilində müəllimlər imtahanının elan edilməsindən sonra, sentyabrda başlayacaq. Proqrama qeydiyyat cəmi bir neçə gün davam edəcək. Müəllim hazırlığı tədris proqramını keçmək istəyənlərə məsləhət veririk ki, istədikləri universitetin veb-səhifəsinə tez-tez nəzər yetirsinlər.

Proqramın başlamasını daha çox fənn imtahanından uğurla keçmiş müəllim olmaq istəyən şəxslər gözləyir.

**60 kreditlik proqram nə deməkdir və qeyd olunan proqramı keçən şəxsə hansı üstünlüklər verilir?**

Müəllim hazırlığı proqramı "axtaran" pedaqoqlara baş müəllim statusunun verilməsi üçün vasitədir. Fənn imtahanını uğurla başa vurmuş müəllim olmaq istəyi olanlar da proqramı keçə bilərlər.

Müəllim olmaq istəyi olan, 60 kreditlik proqramı keçən məktəbə baş müəllim statusu ilə daxil olacaq.

**Müəllim hazırlığı proqramına qəbul olmaq üçün əsas:**

•Fənn imtahanını uğurla verməк;

•Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilmiş imtahanı verməк.

**Universitetə təqdim etmək üçün hansı sənədlər lazımdır?**

a) Ərizə (yerində yazılır);

b) Gürcü dilində tərcümeyi-hal (CV);

c) Şəxsiyyət vəsiqəsi və onun surəti.

ç) Fənn imtahanını verməklə bağlı imtahana qeydiyyat nömrəsinin, qazanılmış və minimal keçid balının qeyd olunduğu arayış. Müəllim sertifikatı olan halda həmin sənədin notariat qaydası ilə təsdiqlənmiş surəti;

d) İki şəkil və şəklin elektron variantı (CD-də);

e) Bakalavr yaxud ona bərabər keyfiyyəti təsdiq edən sənədin, diplomun notariat qaydası ilə təsdiqlənmiş surəti, yaxud uyğun keyfiyyət dərəcəsinin verilməsi haqqında müvafiq ali təhsil müəssisəsinin verdiyi arayış. Arayışda kvalifikasiyanın verilməsi haqqında qərarın nömrəsi və tarixi qeyd olunmalıdır; Xaricdə təhsil alındığı halda isə Təhsilin Keyfiyyətinin İnkişafı Milli Mərkəzinin verdiyi təhsili tanıma haqqında sənəd;

ə) Hərbi uçotda olmağı təsdiq edən sənəd (yalnız oğlanlar üçün).

Qeyd: sənədlərin etibar edilmiş şəxs tərəfindən təqdim olunması halında etibar olunan şəxs notariat qaydası ilə təsdiqlənmiş etibarnamə göstərməlidir.

**Proqramda təhsil almaq pulludur ya pulsuz?**

Müəllim hazırlığı proqramında təhsil almaq dövlət tərəfindən maliyyələşdirilir, ancaq son illər müsabiqə böyük olduğu üçün istəyi olanların bir qismi maliyyələşdirmədən kənar qalır. Universitetlərin böyük hissəsi proqramı keçmək istəyənlərə pullu təhsil də təklif edir, təhsil haqqı isə 2250 laridir.

**Universitetlərdə daxili imtahanlar hansı qaydada keçirilir?**

Universitetlər qəbul üçün esse və müsahibə kimi müxtəlif növ daxili imtahanlar təklif edir. Ola bilsin, universitet daxili müsabiqə üçün hər ikisini – esse yazmağı və müsahibədən keçməyi təklif etsin.

**Hansı universitetlərdə 60 kreditlik proqramı keçmək olar?**

Universitetlərin siyahısını və proqrama qəbul istiqamətlərini təqdim edirik. Proqram elan olunduqdan sonra qeyd olunan siyahıya əlavə fənlər də artırıla bilər. Ona görə də, proqramın elan olunmasından sonra istədiyiniz universitetdən təfərrüatları dəqiqləşdirməyiniz məsləhətdir:

• **İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti** (Gürcü dili və ədəbiyyatı, rus dili, ingilis dili, alman dili, fransız dili, riyaziyyat, fizika, kimya, biologiya, coğrafiya, vətəndaş təhsili, tarix);

• **İlia Dövlət Universiteti** (Gürcü dili və ədəbiyyatı, riyaziyyat, tarix, vətəndaş təhsili, coğrafiya, biologiya, fizika, ingilis dili,alman dili, rus dili, gürcü dili ikinci dil kimi, musiqi, tətbiqi və təsviri incəsənət, ibtidai (I-IV siniflər; Gürcü dili və ədəbiyyatı, riyaziyyat, təbiətşünaslıq);

• **Suxumi Dövlət Universiteti** (Riyaziyyat, informatika, fizika, kimya, coğrafiya, biologiya, tarix, gürcü dili və ədəbiyyatı, ingilis dili, alman dili, fransız dili, rus dili);

• **Vano Saracişvili adına Tbilisi Dövlət Konservatoriyası** (Musiqi);

• **Samtsxe-Cavaxeti Dövlət Universiteti** (Riyaziyyat, gürcü dili və ədəbiyyatı, ingilis dili, rus dili, alman dili, tarix və ictimai elmlər, biologiya, coğrafiya, kimya, fizika);

• **Şota Mesxia adına Zuqdidi Dövlət Tədris Universiteti** (Gürcü dili və ədəbiyyatı, riyaziyyat, ingilis dili, tarix);

• **Akaki Tsereteli adına Dövlət Universiteti** (Gürcü dili və ədəbiyyatı, riyaziyyat, coğrafiya, biologiya, fizika, kimya, ingilis dili, alman dili, fransız dili, rus dili, tarix, musiqi);

• **Yakob Qoqebaşvili adına Telavi Dövlət Universiteti** (Gürcü dili və ədəbiyyatı, riyaziyyat, kimya, fizika, biologiya, coğrafiya, tarix, ingilis dili, alman dili, idman, tətbiqi və təsviri incəsənət);

• **Şota Rustaveli adına Batumi Dövlət Universiteti** (Gürcü dili və ədəbiyyatı, riyaziyyat, ingilis dili, alman dili, rus dili, fransız dili, fizika, biologiya, kimya, coğrafiya, tarix, vətəndaş təhsili, idman, tətbiqi və təsviri incəsənət);

• **Batumi İncəsənət Tədris Universiteti** (Tətbiqi və təsviri incəsənət);

• **Qori Dövlət Tədris Universiteti** (Gürcü dili və ədəbiyyatı, riyaziyyat, ingilis dili, alman dili, biologiya, coğrafiya, tarix);

• **Gürcüstan Patriarxlığının Müqəddəs Andria adına Gürcü Universiteti** (Gürcü dili və ədəbiyyatı, tarix, riyaziyyat, kimya, fizika, biologiya, ingilis dili);

• **Gürcüstan Patriarxlığının Müqəddəs Tbel Abuserisdze adına Tədris Universiteti** (Gürcü dili və ədəbiyyatı, tətbiqi və təsviri incəsənət, tarix);

• **Gürcüstan Universiteti** (Gürcü dili və ədəbiyyatı, ingilis dili, fizika, riyaziyyat, tarix, informasiya və kommunikasiya texnologiyaları);

• **Beynəlxalq Qara Dəniz Universiteti** (Riyaziyyat, ingilis dili) – (ingilis dilli proqram);

• **Şərqi Avropa Universiteti** (Gürcü dili və ədəbiyyatı, ingilis dili);

• **Avropa Universiteti** (Gürcü dili və ədəbiyyatı, riyaziyyat, tarix, vətəndaş təhsili, coğrafiya, biologiya, fizika, kimya, təbiətşünaslıq, ingilis dili, rus dili);

• **Gürcüstan Dövlət Bədən Tərbiyəsi və İdman Tədris Universiteti** – (İdman);

*Mənbə: etaloni.ge*

# MƏKTƏBLƏR NECƏ FƏALİYYƏT GÖSTƏRƏCƏK? – SƏHİYYƏ NAZİRLİYİNİN TÖVSİYƏLƏRİ

Gürcüstanın Təhsil və Səhiyyə nazirlikləri yeni tədris ilindən etibarən təhsil müəssisələri üçün məcburi olacaq tövsiyələr hazırlayıb.

Mövcud tövsiyələrə əsasən, 2084 ictimai məktəbdə yeni tədris ili 15 sentyabrda sinif otaqlarında başlayacaq.

Səhiyyə Nazirliyinin tövsiyələri əsasən bunlardan ibarətdir:

- Şagirdlər arasında mütləq 1 metrlik məsafə saxlanılmalıdır;
- Şagirdlərdən başqa məktəb binasına daxil olan bütün şəxslər mütləq tibbi maska taxmalıdırlar;
- Məktəb binasına daxil olan bütün şəxslərin hərarəti ölçüləcək (termoskrininq) və əlləri dezinfeksiya olunacaq;
- Məktəblərdə tibbi maska ehtiyatı olmalıdır;
- Hər tənəffüsdən sonra tualetlər sanitar qaydada təmizlənməlidir;
- Növbələr arasında yarım saatlıq fasilə olacaq, sinif və ümumi istifadədə olan məkanlar, tez-tez təmasın olduğu səthlərin sanitar təmizlənməsi həyata keçirilməlidir;
- Hərarəti və respirator simptomları olan şagirdlər üçün müvəqqəti təcrid otaqları yaradılmalıdır;
- Dərslər arası tənəffüslərdə sinif otaqları havalandırılmalıdır;
- Məktəbin ümumi istifadə olunan məkanlarında (dəhlizlərdə, pilləkanlarda, müəllimlər otağında və s.) hərəkət zamanı bütün şəxslər (şagirdlərdən başqa) maska taxmalıdırlar.

Qeyd olunan tənzimləmələrə istinadən Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi hər məktəbin spesifika və infrastrukturunu nəzərə almaqla tövsiyələr hazırlayıb. Tövsiyələr bütün məktəblərə fərdi imkanlar, şagirdlərin sayı və məktəb məkanları arasında bərabərliyi nəzərə alaraq tədris prosesini planlaşdırmağa imkan yaradacaq.

Məktəblər tədris prosesini planlaşdıran zaman imkanları olacaq:

- Dərslərin müddətini özləri müəyyən etsinlər (minimum 30 dəqiqəlik dərslər);
- Siniflərə əsasən dərs prosesinin başlama vaxtını müəyyən etsinlər (saat 08:30; 08:45; 09:00);
- Növbələri müəyyənləşdirsinlər və sürətli şəkildə təşkil etsinlər;
- Lazım olan halda birnövbəli məktəblər bir neçə növbəli modelə keçsinlər və müxtəlif pillədə olan şagirdlər növbəyə uyğun getsinlər.

Məktəblər şagirdlərin təhlükəsizliyini və infrastrukturu nəzərə alaraq qarışıq (distant və sinif otaqlarında olan hibrit model) təhsil modelini tətbiq edə bilərlər;

Təhsil prosesinin planlaşdırılması zamanı məktəb infrastrukuturundan irəli gələrək və məktəblərin daha da yüklənməməsi üçün yalnız lazım olan halda şənbə günü dərs günü olaraq istifadə oluna bilər;

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi I-IV sinif şagirdləri üçün məktəb sahəsində dərslərin keçirilməsinin məcburi olduğunu müəyyən edib.

Məktəb administrasiyası tərəfindən lazım olan halda qarışıq modelin tətbiq edilməsi zamanı V-VI siniflərdə distant təhsil həftədə maksimum 1 gün, VII – XI siniflərdə maksimum 2 gün, XII sinifdə isə 3 gün keçiriləcək. Qarışıq təhsil modeli Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi və təhsil resurs mərkəzləri ilə razılaşdırılmalıdır.

Qeyd edək ki, yeni tədris ilinin planlaşdırılması prosesinə beynəlxalq təşkilatlar, özəl, yaxud ictimai məktəb rəhbərliyinin nümayəndələri də qoşulub. Tövsiyələr hazırlanan zaman başqa ölkələrin ən yaxşı təcrübəsi nəzərə alınıb. Təcrübə hər bir şagirdin sağlamlığının qayğısına qalmağı, eləcə də akademik standartların qorunmasını nəzərdə tutur.

Nazirliyin məqsədi hər bir şagirdin sağlamlığının təhlükəsizliyi və tam təhsil mühitinin qorunmasıdır.

Təhsil Nazirliyi Səhiyyə Nazirliyi və Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzi ilə əməkdaşlığı davam etdirir və bütün tövsiyələrə əməl edəcək.

***Rubrikanı hazırladı: Aynurə Əliyeva***

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## KİNTO VƏ QARAÇOXELİ

*(əvvəli ötən sayda)*

Kinto!

Qaraçoxeli!

Tez-tez kinto və qaraçoxelini bir-birilə qarışdırırlar. Biz qədim Tiflisin ləyaqətinin qorunması üçün bu iki tipi bir-birindən ayıracağıq.

Kinto və qaraçoxeli müxtəlif məshəbin adamlarıdır.

Kinto son zamanın adamıdır, əhli-kef, maymaq, əclaf, bir sözlə, kinto qaraçoxelinin simasının itirilmiş nəslidir.

Qaraçoxeli vüqarlı, fərasətli, qəlbi təmiz, halal, cəngavərdir.

Kinto gözüəyri və gözü kölgəlidir: qeyrətlilik əlamətlərinin çox az olduğu alçaqboy insan təəssüratını yaradır.

Qaraçoxeli zahirən boy-buxunlu olan şəxsdir, enli kürəkli, iri gövdəli, dolu sifətli.

Qaraçoxeli və kinto elə geyimlərində də fərqlənirlər.

Qaraçoxeli qara çuxalı deməkdir. Beləliklə, qaraçoxeli nə geyinib, – icazə verin, onların qarderobu ilə sizi tanış edim, – qara şaldan çuxa, uzun ətəkli, qısa büzməli və iki vəznəli. Çuxanın qıraqlarına bəzməndin enli haşiyəsi çəkilib, içəridən qırmızı ipək döşlüklü xırda büzməli arxalıq, üstündən qara atlas və ya kətandan xırda qırışlı arxalıq. Onların enlibalaq şalvarı, xüsusən köbəqara şaldan tikilirdi. Uclarına ipək saçaqlı iplər taxılırdı. Bu şalvarın geniş balaqları içəridən dizbağına salınırdı. Evdə dabansız ayaqqabı geyinərdilər, bayırda "qapaqlı" (dilli, qaytanlı - M.M.) çəkmələr. Onların bəzək şeyi – gümüş toqqalı kəmər, kəmərdə Bağdadın yaşıl "güləbənd" papağı, belində gümüş qəlyan və qəlyan üçün tütün kisəsi.

Kinto başı ilə, çiyni ilə taxtadan tabaq daşıyan deməkdir (Kvinto köhnə qayda ilə quyruqlular da demək idi). (Quyruqlular - gürcülərin mifoloji təsəvvürlərinə və folkloruna görə, sehirkar qadınlar demək idi - M.M.). Kinto çitdən, sol tərəf böyründən bağlanan qızılgül rəngli xırda güllü hündür yaxalıqlı köynək geyinib. Yaxalığında dörd düymə tikilib, lakin yaxası həmişə açıqdır. Qara adi arxalıq, (bundan da ki, nadir hallarda istifadə edirlər) balaqları par-par parıldayan lastik parçadan enli şalvar geyinmişdir. Başında keçə papaq və ya "kiziroklu şlyapa" (günlük - M.M.), ayağında dabansız çustlar (xarici görünüşünə görə qarmon kimi "üst-üstə qatlanmış xrom çəkmələr"), sinəsində boyunbağı ilə saat, belində ipək sartğeli (Sartğeli - kəmərə bənzər lentsayağı materiyaldır, hər iki ucuna qayış bərkidilibdir ki, bununla da belə bağlanır - M.M.) və ya dar gümüş kəmər, kəmərdə adi yaylıq, çuxadan heç istifadə etmirlər.

Qaraçoxelinin səsi şirin və təəssüratoyadıcıdır;

Kintonun səsi – boğuq və cılızdır.

Qaraçoxelinin ədası, hərəkət tərzi qətidir;

Kintonun – çəpəki, əndək-döndəkdir.

Qaraçoxeli özü sözün incilərini yaradır;

Kinto bu sözləri də eybəcərləşdirir.

Qaraçoxeli oxuyurdu:

*"Uçdu məndən məhəbbətin quşu,*
*Başqalarının-başqalarının üzündən!"*

Kinto oxuyur:

*"Ey arğançı, çalginən,*
*Faytonşik, sürməyində ol!"*

Qaraçoxeli öz sevgilisinə heyranlıqla fəryad edir:

*"Sən Ərzurumun dan ulduzusan, Gülnara,*
*Məni işıqlandırmaq üçün çıx üzərə, Gülnara".*

Kinto öz ailəsinə də inanmır:

*"Mənim arvadım Anana*
*Gah bağışlayır, gah da yox!"*

Qaraçoxelinin musiqisi düdükdür.

Kintonun – arğan.

Qaraçoxelinin repertuarı:

*1. "Göy üzündən parça-parça bulud gəlir,*
*Sevgilidən yazılmış məktubu gətirir".*
*2. "Ah, ay, ay, mənim yanmış ümidim!" və sair.*

Kinto bu mahnıları belə ifa edir:

*1. "Кусок-кусок облак идет свисок небеса,*
*Запечатан письмо несет от любовница.*
*2. Ах луна, луна, жаренных надежда... və sair.*

(Niko Nikoladze kintolar tərəfindən bu mahnıların ruslaşdırılmasını "tərcümənin cazibədarlığı" olaraq adlandırır. (Bax. "Toplu", 1873-cü il, X, XI, XII kitab, səh.126).

Qaraçoxelinin içdiyi qab Çin cəmi, gil piyalə, azarpeş (qulplu geniş ağızlı böyük qaşıq sayağı şərab içilən qab-M.M.) və gümüşlə bəzədilmiş taxtadan hazırlanmış sürahi.

Kinto heç də bu qabların adlarını bilmir. O, qurşaqlı stəkanları da rədd edir və əcnəbi bohemistlərin təhriki ilə şərabı qadın tuflusundan da içir:

*"Di, şərabı, Kaxetinin,*
*O ağ tuflu ilə içilməli, boşaldılmalı.*
*Anuşkacan, sənə soyuq dəyməsin!"*

Kinto namərddir.

Qaraçoxeli comərd.

Onların alış-veriş dialoqu da başqa cürdür.

Kinto öz müştərisinə min cür sırtıq, ədəbsiz, qeyri-orijinal sözlər işlədir (nümunələri istəməyək)...

Qaraçoxelinin sual-cavabı isə bu halda da ağıl işlətməkdir. Məs.: qaraçoxelinin yanına bir ana yanında gözəl qızı ilə gəlir, nəsə almaq istəyir.

*- Neçəyədir, bala, bu mal?*
*- Səkkiz abbası.*
*- Altı abbasıya verə bilməzsən?*
*- Bu qız sizin nəyinizdir, anam?*
*- Qızımdır, mənim balam!*
*- Olar!*



Bax, bu gerçəklikdən götürülmüş kiçik faktdan da qədim Tiflisin qədim qaraçoxelisinin necə bir eşqə və mərifətə malik olduğu aydınca görünür.

Kintonun çatdırıb dediyi söz qırıq kəlmələrdir, min dəfə deyilən, şablon, həmişə səbatsız, qorxaq və lüt-üryandır.

Qaraçoxelinin sözü isə qətidir və sadəqəlblilikdir, qaraçoxeliləri kintolardan ayıran yeganə şey mimik istehzadır.

Qədimdə qaraçoxelilərin adəti vardı, kirpiklərini qopardıb daimi qardaşlıq əlaməti olaraq daşda döyüb toz halına salırdılar.

Kinto isə belə sərsəmləyir: Dost yaxşı olsaydı, Tanrının da olardı!

Qaraçoxeli qəhvəxanalardan, "traktirlərdən" bezara gəlib. Ona da daha "yuxarılara" qalxması lazımdır:

*"Allah saxlamış, necə yəni məni nə acıqladırır,*
*Ürəyim ağrıyır, istəyirəm sizinlə bölüşəm.*
*Nədən, qardaş, bir də görüm, niyə-*
*Mən traktirə, sən teatra getməlisən!"*

Kinto isə öz partnyoruna belə deyir:

*"Xocavankda heykəllər ki, var,*
*Ora gəl, orda oynayaq qumar".*

Qaraçoxeli çox hallarda min cür əyləncə uydurur ki, bu da sonralar adət halına keçir.

Kinto isə bu adətləri məhv edir. Onun əyləncələri: qumar, iyrənc nitqi, Sodomqomor günahıdır (İncilə görə, Tanrının əhalisinə görə cəzalandırdığı iki şəhər. Sodom və Qomor.- M.M.) və əliəyrilikdir.

Bu zümrələrin əmələ gəlməsinə hansı şəraitlər imkan yaradırdı?

Qaraçoxeli qədim Tiflisin qədim nəslidir. Qaraçoxeli "Gürcüstan həyatı"nda deyildiyi kimi "Tiflis şəhəri hələ tamamilə itaətin boyunduruğu altına keçmədiyi zamanlar"ın vətəndaşıdır. Qaraçoxeli gürcü-fars əlaqələrinin və ümumiyyətlə, Şərq xalqlarının bizim həyatımıza təşrif buyurmasının sintezidir.

Kinto isə qarışıq bazarın qoynunda ticarət sənəti üstələyəndə yaranıb. O, qaraçoxelilər ailəsinin çöküntüsüdür, küçələrdə və kazinolarda böyüyəndir. Kinto bir yalançı olaraq az qabiliyyət və az tələbat sahibidir. İki quruşluq gəlirlə kifayətlənir ki, bunu da uzun müddət cibində heç də saxlamır: Ya mikitanın daxılı önündə xərcləyir, ya da qumarbazlıqda uduzur.

Rusiyada "Босяк" olduğu kimi, bu əyyaş kitab hərisi, Parisdə "Apache" özünəməxsus tip, onu kimi də bizim Tiflis, yalnız Tiflis bu bədəsili, əhli-kefi, "pajarni"ni yaratmışdır. Onlarla müqayisədə hər halda böyük yaramazlıqları törədə bilməzlər.

***

Tolstoy Tiflisdə olarkən öz dostuna yazırdı: "Tiflisin sivilizasiyası nəzərə çarpır, Tiflis Peterburqu təqlid edir..." ("Писма Л.Н.Толстого", 1910-cu il, səh.13).

Doğrudan da Tiflisə sivilizasiya daxil olurdu, Tiflis Avropalaşırdı. Tiflis dəyişirdi və eyni zamanda, əlbəttə qaraçoxelilərin zümrəsi də məhv olurdu və arada itib-batırdı.

Budur, İlya nə yazırdı o dövrkü "cırlaşmış Tiflis barəsində": "Bizim ki, şəhərimizdir, amma ora ürəyimə yatmır, sanki bizimkilər bar-barxanasını yığıblar, başqa yerdə sığınıblar və ora başqaları məskunlaşıblar. Ürək ürəyə daha yaxın durmur və istək istəyə. Ləçək də (Qədim Tiflisdə qadın baş örtüyü-M.M.) nədir ki, heç yerdə daha görə bilməzsən. Sanki namusla birlikdə açıb elə tullayıblar" (Bax. İlya Cavcavadzenin yazıları, "Gürcü kitabı"nın nəşri, III cild, səh. 309).

Bunu əcnəbi səyyahlar da qeyd edirlər.

Teofil Deirol nəql edir: Şərqdə adətlə birlikdə geyim də dəyişikliyə məruz qalır (Теофиль Деироль: "Всемирный путешественник", 1878-ci il, №XI).

Və ya yenə:

"Özünün daha çox ballarda geyindikləri gürcü geyiminə baxmayaraq gürcü xalqı tədricən Avropa ictimaiyyətinə qarışırdı" (Русская старина, 1917-ci il, fevral, səh.189).

Lakin bunu görmək, qeyd etmək gürcü şairi üçün daha çox hissedici idi. Bax, ikinci gürcü şair Qriqol Orbeliani gürcü geyiminin məhv olmasından necə şikayətlənir: "Avropada görkəmli rəssam Ziç gəldi ki, "Demon" "kartina"sı üçün, onu gürcü kişi və qadının köhnəsayağı geyimi ilə çəkə və heç kimi tapa bilmədik! Taso Oqlobjioya Allah kömək olsun. O, öz toy paltarını verdi, qamçısı ilə, cığası ilə, dingəsi ilə, köhnəsayağı əşyaları ilə və bununla Ziçi çox sevindirdi. Belə maarifləndi, belə korlandı Gürcüstan ki, özününkünü daha istəmir və gürcüsayağı geyinməyə çox utanırlar! Oh, Oh, knyaz Niko, çox-çox təəssüflər olsun!" (Qriqol Orbelianinin Niko Cavcavadzeyə 1881-ci ildə yazdığı məktub. Bax. Sameqrelo muzeyi, Zuqdididə: "İona Meunargiyanın arxivi").

Bu iki gürcü şair əgər Tiflisin çalarlarının dəyişməsini belə ah-vayla qeyd edir və gürcü qarderobunun Avropalaşdırılmasından narahat olurdusa, üçüncü şair Rafael Eristavi kintolara – bu yeni vətəndaşlara qarşı birbaşa hücuma keçir:

*"Bir bax, bizim şəhər necə də dəyişib,*
*Heç kimi tanımıram, nə də məni tanıyırlar, kintolarla doludur.*
*Bunu ki, mən gördüm, di, nə deyiləsidir.*
*Köhnə şəhərdə palçıq, yenə köhnənin köhnəsidir...*
*Bizim paytaxt necə də dəyişib,*
*Və dəllək Qrikula da parikçi olub.*
*Tağliantların Geuyası, bürünc və mis qabları ki, qalaylayırdı,*
*Bu gün "kalyaskada" oturub, başını daha gizlətmirdi...*
*Camaat vurnuxur, hey milçək kimi bir-birinə qarışır.*
*Onlara baxan insan ağlını başından itirir.*
*Qadınların arxasınca sürünür quyruqlar, hər boyunduruq açılanda...*
*Öndə cib, dalda cib, yenə papaq üzərində cib...*
*Küçələrdə köhnəsayağı mahnı daha eşidilmir,*
*Görəsən, bunu nə yox etdi? Nə günahın yiyəsi olduq?*
*Bir bax, mənim şəhərim necə də dəyişib,*
*Heç kimi tanımıram, nə də məni tanıyırlar, kintolarla do ludur.*

*(sətri tərcümə)*

*(davamı gələn sayda)*

**Gürcü dilindən tərcümə: Mirzə MƏMMƏDOĞLU**

## GİORGİ QAXARİA: "QABAL KƏNDİNDƏ YENİ MƏKTƏBİN TİKİLMƏSİNƏ EHTİYAC VAR"



Laqodexi rayonunun Qabal kəndində yeni məktəbin tikilməsinə ehtiyac var. Bunu Laqodexidə səfərdə olan baş nazir Giorgi Qaxaria deyib. Onun sözlərinə görə, kənddə yeni məktəb mütləq inşa olunmalıdır.

G.Qaxaria Kaxeti bölgəsində həyata keçirilən infrastruktur layihələrindən də danışıb. O bildirib ki, Laqodexidə fasiləsiz su təminatı üzrə bir neçə layihə reallaşdırılır.

Qeyd edək ki, Qabal kəndində yeni azərbaycandilli məktəbin inşasına ehtiyac var. Ötən ilin aprelində məktəbin inşa olunacağı barədə bildirilmişdir.

## QARDABANİDƏ YENİ ƏDLİYYƏ EVİ TİKİLİR



Baş nazirin müavini, ədliyyə naziri Tea Tsulukiani Qardabanidə olub. Nazir rayonda inşa olunan Ədliyyə evində aparılan işlərlə yaxından tanış olub.

Ədliyyə evinin tikintisi artıq yekun mərhələdədir və bu ilin payızında vətəndaşların istifadəsinə veriləcək. İdarədə dövlət və özəl sektor üzrə 450-dən çox xidmət göstəriləcək, nikah zalı olacaq.

T.Tsulukianini Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili, Qardabani meri Ramaz Budağaşvili, deputat Savalan Mirzəyev və digər rəsmi şəxslər müşayiət ediblər.

Qeyd edək ki, Qardabanidəki Ədliyyə evi Kvemo Kartlidə açılacaq dördüncü ədliyyə evi olacaq. Hazırda Gürcüstan üzrə ümumilikdə 24 Ədliyyə evi fəaliyyət göstərir.

## DMANİSİ BƏLƏDİYYƏSİNDƏ SƏKKİZ İCTİMAİ MƏKTƏB BƏRPA OLUNACAQ



Layihə çərçivəsində Sarkineti, Maşavera, Yaqublu, Qəmərli, Zemo Orzuman, Zemo Qarabulaq, İpnar və Dağ Araflı kənd məktəblərində bərpa işləri həyata keçiriləcək.

Təmir-bərpa işləri çərçivəsində istilik sistemləri, dam örtüyü və sanitar qovşaqlarının quraşdırılması, binaların məhdud fiziki imkanlı şagirdlər üçün adaptasiya olunması nəzərdə tutulur.

Bələdiyyənin bütün ictimai məktəblərində bərpa işləri mərhələli şəkildə həyata keçiriləcək.

İnfrastruktur işləri mərkəzi büdcənin maliyyəsi ilə 648 625 lariyə başa gəlir.

## GÜRCÜSTAN MİLLİ KARATE-KİKBOKSİNQ VƏ QARIŞIQ DÖYÜŞ NÖVLƏRİ FEDERASİYASININ PREZİDENTİ VƏ GÜRCÜSTAN MİLLİ KARATE FEDERASİYASININ VİTSE-PREZİDENTİ AZƏRBAYCANLI TƏYİN OLUNUB



Marneulidən olan idmançı Faiq Məmmədov avqustun 8-i Gürcüstanın Milli Karate Federasiyasının vitse-prezidenti təyin olunub. Bu barədə federasiya məlumat yayıb. İyulun 27-si idmançı həmçinin Gürcüstan Milli Karate-Kikboksinq və Qarışıq Döyüş Növləri Federasiyasının prezidenti vəzifəsinə təyin olunub. Faiq Məmmədov 2012-ci ildən Gürcüstan Sayokan Federasiyasının da prezidentidir.

Qeyd edək ki, 12 yaşından karate, sonra isə taekvando idman növü ilə məşğul olan Faiq Məmmədov 22 illik müəllimlik təcrübəsinə malikdir. İndiyə qədər hazırladığı idmançılardan 10-larla Gürcüstan, 4-ü dünya, 1-i Avropa çempionu olub.

## GÜRCÜSTANIN XARİCƏ OLAN BORCLARI NƏ ÜÇÜN İLDƏN-İLƏ ARTIR?



Bildiyimiz kimi, ölkəmizdə qızıl, neft və qaz kimi yeraltı sərvətlər əhalinin tələbatını tam ödəyəcək miqdarda olmadığı üçün Gürcüstan bu kimi resursların böyük qismini xaricdən idxal edir. 2019-cu ilin xarici ticarət balansına baxdıqda görərik ki, ötən il ərzində ölkəmiz xaricə 3.5 milyard dollar dəyərində ixrac, 7.4 milyard dollar dəyərində isə xaricdən ölkəmizə məhsul idxal etmişdir. Göründüyü kimi arada kəskin fərq mövcuddur. Ölkəmizin bir ildə xaricdən aldığı məhsullar xaricə satılandan iki dəfədən çoxdur, bu isə öz növbəsində ticarət balansında mənfi saldo yaranmasına və ölkənin gəlirlərinin önəmli bir hissəsinin xaricə axmasına səbəb olur.

Həmçinin təbii yeraltı ehtiyatlara olan ehtiyacla yanaşı ölkə əhalisinin yerli məhsulla müqayisədə idxal olunan ucuz məhsullara daha çox yönəlməsi qısamüddətli zaman kəsiyində insanların gəlir və rifah səviyyəsinə uyğun olsa da bu, ölkədən pul çıxışını daha da sürətləndirir. Bu isə ölkəni xarici idxaldan asılı vəziyyətə salır və ilin sonunda dövlət gəlir və xərclərinin hesablamaları zamanı büdcə kəsiri yaranmasına, bu problemi isə Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Asiya İnkişaf Bankı kimi donor təşkilatlardan borc alaraq aradan qaldırmağa çalışır. Belə vəziyyət hər il təkrarlandıqda isə borcların ildən-ilə artmasına, əvvəlki ilin borcunu bitirməmiş yeni borclanmalara səbəb olur.

Hazırda Gürcüstanın ümumi xarici borcu 17 milyard dollar həcmindədir (Qeyd edək ki, borcların hamısı dollarla deyil). Ölkəmizdə bir ildə istehsal olunan ümumi daxili məhsulun dəyəri isə 15.9 miylard dollar təşkil edir. Göründüyü kimi, ölkənin ümumi borcları daxildəki istehsalatın dəyərini üstələyir. Elə də arzuolunan vəziyyət kimi görünməsə də "Standard & Poor's", "Moody's", "Fitch" kimi beynəlxalq reytinq agentlikləri ölkəmizin bu vəziyyətini əvvəlki onilliklərlə müqayisədə stabil hal kimi qiymətləndirir və Gürcüstanı ölkə əhalisinin yaşayış səviyyəsi və illik ortalama gəlirlərinə görə inkişaf etməkdə olan ölkələr siyahısında qeyd edirlər.

Post-Sovet məkanında yerləşən Gürcüstan üçün kommunist dünyasının qəfil süqutundan sonra müstəqilliyinin ilkin illərində ölkənin yeni açıq bazar iqtisadiyyatı meydanına atılması onu çox ağır vəziyyətə salmışdı. Yenicə suverenliyini qazanan dövlət yeni tipli iqtisadi əlaqələr qurmaq üçün müəyyən vəsaitə ehtiyac duyurdu. Elə o dövrdən donor təşkilatlar və dövlətlərin müxtəlif yardım paketləri və faizi endirilmiş kreditləri hesabına Gürcüstanda bazar iqtisadiyyatı dirçəlməyə başladı. Bu, ölkədə azad ticarətin inkişafında mühüm rol oynasa da daxildə davamlı istehsalat olmadığından dövlət borclarını ödəməkdə çətinlik çəkirdi və köhnə borcları ödəmək üçün yeni borclar götürməyə məcbur olurdu. Bu isə hər il ötən ildən qalan borcların üzərinə yeni borcların da yüklənməsinə gətirib çıxartdı. Pandemiyaya qədər olan müddətdə ölkədə bir neçə sahədə (turizm, səhiyyə və s.) nəzərəçarpan inkişafın olması həm əhalinin gəlirlərinin yüksəlməsinə, həm də stabil şəkildə dövlətin borclarını vaxtında ödəməsinə imkan verirdi. Həmçinin Avropa İttifaqi ilə yaxınlaşma Avropa ölkələrinin inkişaf fondlarının (xüsusilə də Almaniyanın) burada yeni tikinti və maliyyə lahiyələrini həyata keçirməsinə imkan yaradırdı. Ancaq yeni koronavirus (COVID-19) 2020-ci il üçün heç də ürəkaçan hadisə olmadı.Virusun yayılması Gürcüstan üçün mühüm önəm kəsb edən turizmə və bu sahədə çalışanlara ağır zərbə vurdu. Düzdür, Ümumdünya Səhiyyə Təşkilatı (WHO) 2020-ci ilin dekabr ayına qədər dünya ölkələrində virus səbəbindən zərərçəkənləri 1.7 milyad dollar həcmində maliyyələşdirəcəyini açıqlasa da, ölkə daxilindəki iqtisadi fəallığın əvvəlki kimi olmayacağı güman edilir.

Bütün bunlara baxmayaraq ümid edək ki, qarşıdakı illərdə dövlət həm əhalinin yaşayış səviyyəsi və gəlirlərinin artmasını, həm də ölkəmizin xarici borclardan asılılığını azaldaraq vəziyyəti sabit saxlamağa nail olacaqdır.

**Səlahəddin Piriyev**

*Tbilisi Dövlət Universitetinin İqtisadiyyat və Biznes fakültəsinin tələbəsi*

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 AVQUST 2020-Cİ İL №010 (114)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTAN PARLAMENTİNİN AZƏRBAYCANLI DEPUTATLARINDAN YALNIZ İKİSİ FƏALLIQ GÖSTƏRİB

Ötən il Gürcüstan parlamentində təmsil olunan iki azərbaycanlı deputat – Ruslan Hacıyev və Mahir Dərziyev çıxışetmə hüququndan istifadə etməyib. Bu barədə "Beynəlxalq Şəffaflıq – Gürcüstan" təşkilatının qanunverici orqanın 2019-cu il üzrə fəaliyyətinə dair hesabatında bildirilib.

Digər azərbaycanlı deputatlar - Azər Süleymanov 3, Savalan Mirzəyev isə 5 dəfə çıxış edib.

Sənədə əsasən, R.Hacıyev qanunverici orqanın plenar iclaslarını əsassız səbəblərə görə ən çox buraxan deputatların ilk üçlüyünə daxil olub.

Ötən il azərbaycanlı deputatlar ayrılıqda qanunvericilik təşəbbüsləri təqdim etməyiblər.

Qeyd edək ki, sənəd 1 yanvar 2019 - 31 dekabr 2019 dövrünü əhatə edir. 2018-ci ilin hesabatına əsasən, azərbaycanlı deputatların heç biri parlamentdə çıxışetmə hüququndan yararlanmayıblar.

*Mənbə: report.az*

## GÜRCÜSTANA PUL KÖÇÜRMƏLƏRİ AZALIB



2020-ci ilin yanvar-iyun aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə xaricdən Gürcüstana pul köçürmələri 34.3 milyon ABŞ dolları, yəni 4,9% azalaraq 662.9 milyon ABŞ dolları təşkil edib. Bu haqda 2020-ci ilin dövlət büdcəsinin 6 aylıq müzakirəsində qeyd olunub.

Sənədə əsasən, xaricdən təmiz pul köçürmələri aşağıdakı ölkələrdən artıb:

- İtaliyadan 14,5 faiz, yəni 15.9 milyon ABŞ dolları artaraq 126.0 milyon ABŞ dolları təşkil edib;
- ABŞ-dan 3,3 faiz, yəni 2.7 milyon ABŞ dolları artaraq 86.2 milyon ABŞ dolları təşkil edib;
- Yunanıstandan 3,5 faiz, yəni 3.1 milyon ABŞ dolları artaraq 92.1 milyon ABŞ dolları təşkil edib.

Pul köçürmələrinin azaldığı ölkələr isə bunlardır:

Rusiyadan 31,5 faiz, yəni 50.9 milyon ABŞ dolları azalaraq 110.6 milyon ABŞ dolları təşkil edib.

İsraildən 9,1 faiz, yəni 7 milyon ABŞ dolları azalaraq 69.8 milyon ABŞ dolları təşkil edib.

*Mənbə: bpn.ge*

## MİLLİ BANKIN PREZİDENTİ: TURİZM GƏLİRLƏRİ 80% AZALACAQ



Milli Bankın prezidenti Koba Qvenetadze bildirib ki, Gürcüstanın turizmdən builki gəlirləri illik müqayisədə 80% azalacaq.

Onun sözlərinə görə, bu göstərici turizm gəlirlərinin ilin qalan hissəsi üçün minimal olacağı ehtimalı ilə proqnoz edilir.

K.Qvenetadzenin sözlərinə görə, mövcud pandemiya böhranının əsas xüsusiyyəti qeyri-müəyyənliyin yüksək səviyyədə olmasıdır ki, bu da əsasən turist axınlarına aiddir.

## BU İLİN İKİNCİ RÜBÜNDƏ 11 NƏFƏRİN SÜRÜCÜLÜK VƏSİQƏSİNİN 100 BALI TAM OLARAQ TÜKƏNİB



Gürcüstanın Daxili İşlər Nazirliyinin 2020-ci ilin 2-ci rübünə olan statistikasına əsasən, ölkə miqyasında 11 nəfərin sürücülük vəsiqəsinin 100 balı tam olaraq bitib.

Statistikaya əsasən, bölgələr arasında 100 balı tam bitənlər ən çox Tbilisi (2 nəfər), Kaxeti (2 nəfər), Sameqrelo-Zemo Svanetidə (4 nəfər) qeydə alınıb. Daha sonra Acara (1 nəfər), Quriya (1 nəfər) və Kvemo Kartli (1 nəfər) bölgələri gəlir.

Xatırladaq ki, 2018-ci ilin 1 noyabrından İnzibati Xətalar Məcəlləsində video cərimələrin icra olunmasının yeni qaydası qüvvəyə minib. "Ağıllı kameralar" qaydanı pozan sürücüləri işıqforun qırmızı işığında keçmək, ikiqat xətti kəsmək, sürəti aşmaq və başqa səbəblərə görə cərimələyir.

*Mənbə: bpn.ge*

## GÜRCÜSTANIN XARİCİ DÖVLƏT BORCU BİR AYDA 1,490 MİLYARD LARİ ARTIB




Maliyyə Nazirliyinin məlumatına görə, 2020-ci ilin iyul ayında ümumi borcun həcmi 20 257 138 000 lari təşkil edib (6 594 335 000 dollar). İyunda isə bu göstərici 18 766 661 lari təşkil edirdi. 20 257 138 000 laridən hökumətin xarici borcu 19 475 792 000 lari, Milli Bankın borcu isə 781 346 000 lari təşkil edir.

Gürcüstan dövlətinin ən böyük kreditorları isə bunlardır: Asiya İnkişaf Bankı (ADB); Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası (IDA); Avropa İnvestisiya Bankı (EIB) və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (IBRD).

Gürcüstanın Beynəlxalq İnkişaf Assosiasiyasına 2,851 milyard lari, Asiya İnkişaf Bankına 4,363 milyard lari, Dünya Bankı, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına 2,494 milyard lari, Avropa İnvestisiya Bankına isə 1,884 milyard laridən çox borcu var.

*Mənbə: bpn.ge*

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım Direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlelik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.